...Mən yarpağa nəzər saldım!
Şaxta vurmuş, gün döymüş,
Çöhrəsi damar-damar.
Yerdən, göydən soruşdum,
Dedim səhər yelinə:
– Burada nə hikmət var?
Deyin, neçin bənzəyir
Yarpaq insan əlinə?

Bəzən mövzu zənginliyi, hadisələrin genişliyi, bədii faktın çoxluğu şairi poeziyanın epik formalarına müraciət etməyə sövq edir. Fərəhləndirici haldır ki, şair bu janrda sanballı əsərlər yaratmışdır. Həmin əsərlər ədəbiyyatımızın zəngin səhifələrində qalmağa vəsiqə ala biliblər.

Şairin "Qılınc"ı, "Tatyana"sı, "Taras"ı, "Koroğlunun qocalığı", "Qatır Məmməd" mənzum tarixi dramı belə əsərlərdəndir. "Şairin yuxusu" pyesi dahi şairimiz Nizami Gəncəvinin həyatından bəhs edir. Bu əsərdə böyük şairin həyatı, taleyi, dövrü önə çəkilir.

Elə buradaca nədənsə onun çoxsaylı şeirlərindən biri də xatirə goldi:

Öləndə bir daşa çevirin məni –
Vətən torpağında bozca bir daşa.
Mən yaxşı bilirəm tale deyəni:
Hər insan ömrünü vuracaq başa!
O daşın üstündə bir usta əli
Əvvəl günəş qazsın, sonra bir insan.
Çünki bu dünyaya şair gələli
Mən ancaq onları sevmişəm, inan!

Sevgilərin sevgisidi insana sevgi. Günəşsiz də həyat yoxdur. Şair son anında belə insanları Günəşə, işığa tapşırırdı. Bu həm də yaxşılıqların əbədi yaşayacağına böyük arzu və inam demək idi. Əsil şair qəlbindən gələn amal idi.

Zeynal Xəlil yaradıcılığı son dərəcə geniş və çoxşaxəlidir. Bir kiçik yazıda onu xarakterizə və təhlil etmək, şübhəsiz ki, mümkün deyildir.

Zaman keçib, illər ötdükcə onun poeziyası daha isti, daha şirin görünür. Çünki bu poeziya insana və onun daxili aləminə hər vaxt yaxın olub. İnsan isə heç vaxt ona yaxın olanı unutmur. Sözün həqiqi mənasında Zeynal Xəlil poeziyası yaşarı poeziyadır.

Taleh Həmid

Şeirlər

ATA VƏ OĞUL

Atam mənim papaqçıydı...
Varı-yoxu bir qəlibdi,
Bir də iynə.
Gecə-gündüz bunlar oldu
Çatan onun köməyinə.
O bir qəlib,
O bir iynə!
Yazıq kişi
Yazıq atam!..
Ömrü boyu əllərinin
Zəhmətini sata-sata,
Dəzgahının arxasında
Daim tərə bata-bata,
İşləyərək bütün günü
Bir iynəylə daşıdı o,
Öz ömrünün daş yükünü!
Nə dünyadan oldu halı,
Nə də bildi nədir zaman,
Hardan gəlib, hara gedir
Çaylar kimi axan insan?
Amma yazıq heç etmədi
Taleyindən bir şikayət,
Dedi: Tanrı belə yazıb
Bəxtimizi bizim, əlbət!
Çörək dərdi, uşaq dərdi,
Paltar dərdi çəkdi müdam,
Ömrü belə oldu tamam.
Yazıq kişi,
Yazıq atam!..

Atam mənim papaqçıydı,
Mən şairəm – onun oğlu!
Hər istəyim hər amalım
Günəşli bir sözlə dolu,
Mən şairəm - onun oğlu!
Bu adi bir peşə deyil...
Bu ən ağır bir zəhmətdir.
Mənim eşqim bu dünyaya,
İnsanlara məhəbbətdir.
Çörək dərdi, uşaq dərdi,
Paltar dərdi, bilmirəm mən
Belə şeylər umma əsla
Günəş boyda bir taledən.
Əməllərdə, döyüşlərdə
Axtar bunun sən kökünü.
Bir iynəylə çəkmək olmaz
Karvanımın bu yükünü!
Yerə-göyə olub həmdəm, –
Buna ürək tab gətirər,
Bir də qorxmaz iti qələm,
Yerə-göyə olub həmdəm.
Mən əsrimin öz oğluyam,
Zaman mənim qardaşımdır!
Harda yansa al bayraqlar, –
Onlar mənim sirdaşımdır.
Mən azadlıq nəğməkarı,
Şinel geymiş sənətkaram:
İnqilabın səngərləri
Harda olsa, nə vaxt olsa,
Bilin, orda mən də varam!
Mən də varam!
Mən də varam!..

ŞAİR OLMAQ İSTƏDİM MƏN...

Şair olmaq istədim mən...
Əynimdə boz, köhnə şinel.
Dörd yanımda ölüm və qan,
Məni əsgər etdi zaman!..
Şair deyil, əsgər oldum...
Tarixlərə əsgər kimi
Yazılacaq mənim adım,
Mən bu adı daşımaqdan
Yorulmadım, usanmadım.
Bu ad mənim şöhrətimdir!
Bu ad mənim qüdrətimdir!..
Şair deyil, əsgər oldum...
Ömrüm boyu səngərlərdə
Keçə-keçə od içindən:
– Bu yaxşıdır! – dedim bəzən.
Əsgər oldum bu susmayan,
Qasırğalı və tufanlı,
Daim belə dəliqanlı
20-ci əsrimə mən!
Süngü–mənim qələmimdir!
Cəbhələrdə yağıların
Ordusunu poza-poza,
Öz şeirimi mən onların
Sinəsinə yaza-yaza
Yollar açdım səadətə,
Yollar açdım ilk bahara –
Əsarəti, fəlakəti
Boğazından çəkib dara!
Qulluq etdim mən əsrimə
Hər gün mahnı deyə-deyə;
Bəzən onun kürəyinə
Zopa ilə döyə-döyə!..
Şair deyil, əsgər oldum...
Əsgər oldum Vətənimə,
Əsgər oldum partiyama,

Əsgər oldum yaraşıqlı
Və möhtəşəm bu dünyama!
Qılınc vurub qorudum mən
Azadlığı, səadəti
Ulduzdakı gözəlliyi,
İnsandakı məhəbbəti.
Mən qorudum səhərlərin
Döşündəki bu gümüşü,
Mən qorudum körpələrin
Üzündəki bu gülüşü;
Mən qorudum qardaşlığı,
Ülviyyəti qorudum mən;
Zamandakı bu sürəti,
Kamaldakı bu mənanı,
Bu vüsəti qorudum mən!..
Bu iş uzun çəkəcəkdir!..
Səngərdə də məzuniyyət,
İstirahət yoxdur mənə!..
Əgər ölsəm... Dostlar, nə qəm
Sabah qalxıb, bu dünyaya
Yenə əsgər gələcəyəm!..
Şair olmaq istədim mən...
Əynimdə boz, köhnə şinel,
Dörd yanımda ölüm və qan
Məni əsgər etdi zaman!..

1968

DƏNİZ OLMAQ İSTƏDİM...

Mən vurğunam dənizə!
Baxdıqca hey sulara,
Ürəyimdə göynədi
Gecə-gündüz bir yara.
Dəniz olmaq istədim –
Qasırğalı, tufanlı,

Nəhayətsiz bir dəniz!
Dəniz olmaq istədim...
Bəzən çənli, dumanlı,
Bəzən isə sinəsi
Ayna kimi tərtəmiz,
Sularında ay üzən
Mavi rəngli bir dəniz!
Dəniz olmaq istədim...
Nə dost bilim, nə düşmən,
Unudum dərdi, qəmi.
Qağayılar, balıqlar
Olsun hər vaxt, hər zaman,
Sularımın həmdəmi!..
Dəniz olmaq istədim...
Tüğyana gəlib hərdən
Çırpılıb boz daşlara
Çilik-çilik olum mən!
Hərdən də qollarımı
Qayalarda çataraq,
Baş qoyum sahillərə
Quzu kimi yataraq!
Dəniz olmaq istədim...
Ayrılıb düşüncədən,
Əzabdan, işgəncədən
– Yox! – söylədim özümə.
Səma, dəniz və insan
Hərəsi bir cilvədə
Göründülər gözümə.
Baxdım: İnsan gözəldir!
Gözəldir insan olmaq!
İnsanla bir qüdrətdə
Nə dəniz var, nə də dağ.
Sən ondakı kamala,
Ondakı hünərə bax!
Vurulsam da dənizə,
Gözəldir insan olmaq!

XX ƏSRİM MƏNİM

Alnında çapıq yeri,
Əllərin qabar-qabar.
Görkəmində heç zaman
Və heç kəsdə olmayan
Ən möhtəşəm bir vüqar!
Üstündə cəbhə tozu,
Bir də barıt qoxusu,
Gözündə səadətin
Sevimli parıltısı,
Həm də hərbin qorxusu!..
Bu hüsnünə baxıb mən
Sevdim səni ürəkdən,
XX əsrim mənim!
Bayrağının rəngi al,
Qəlbində böyük amal;
Keçmişin və indinin,
Al günəşli sabahın
Ümman dolu mənası, –
Bir azadlıq dünyası!..
Kamalında Leninin
Kamalının şöhrəti!
Qüdrətində İnsanın
Tükənməyən qüdrəti!..
Seyr etdikcə, söylə
Sən,
Nə gözəl, nə qəşəngsən,
XX əsrim mənim!
Oldun mənə bir ana
Sığınmışam qoynuna.
Ən isti beşiyimsən,
Evimsən-eşiyimsən,
XX əsrim mənim!
Sən – komandan,
Mən – əsgər.

Hər günün mənə səngər.
Ömrümüz şirin, acı,
Daddım hər ehtiyacı...
Xoşbəxtəm! Səndən əvvəl,
Və nə də səndən sonra
Dünyaya gəlmədim mən,
Gəl, öpüm əllərindən,
XX əsrim mənim!
Çiynində ən ağır yük,
Mənzil uzaq, dərd böyük!
Dağları yara-yara
Çəkirsən karvanını
Kommunizm dediyimiz
Bir solmayan bahara,
XX əsrim mənim!
Sən gedirsən qovuşub
Böyük əbədiyyətə!
Tarix heyran qalacaq
Səndəki ülviyyətə.
İstəməyən getməsin,
Qoy tərənnüm etməsin
Sənin bu calalını,
Şeirə bənzər halını!..
Ağır yollar boyunca
Mən sənə sadiq qalıb,
Mahnı qoşub saz çalıb,
Fəxr edib övlad kimi
Şöhrətinlə, şəninlə,
Gedəcəyəm səninlə,
XX əsrim mənim!
XX əsrim mənim!

1962

SEVDİYİM RƏNG

Dan sökülür... Gün çıxır...
Pəncərəmi açır yaz,
Mən göylərə baxıram,
Göylər mavi bir atlaz!
Torpaq mavi, su mavi!..
Yarpaqlara düşüb şeh,
Sünbülləri dindirir
Dağ döşündən əsən meh.
Hər tərəfə yayıbdır
Öz ətrini qızılgül,
Qərənfilə, nərgizə
Vurğun olmuşdur könül.
Çiçəklərə baxın siz;
Biri yaşıl, biri ağ,
Tutub piyaləsini
Önümdə mavi zanbaq...
Dalğalanır gözümdə
Bu rənglərin dəryası,
Çiçəklərin dünyası!..
Çiçəklər çox, rənglər çox...
Bu həqiqət olsa da,
Mənim şair könlümü
Gündə bir rəng alsa da,
Hər rəngdən çox sevirəm
Baharda aşıb-daşan,
Qazları qaqqıldaşan
Göllərimin rəngini;
Dumanlı dağlarımın,
Meyvəli bağlarımın,
Ceyranları qaçışan
Çöllərimin rəngini;
Hər gün seyrə daldığım,
Baxıb ilham aldığım
Çəmənimin rəngini;

Həmişə təravətli,
Torpağı bərəkətli,
Göyləri al günəşli
Vətənimin rəngini!
Vətənimin rəngini!

* * *

Harda bir ocaq söndü
Dönüb o gün bir şama
Orda yandı ürəyim!
Kim düşdü fəlakətə –
Özünü fəlakətdə,
Odda sandı ürəyim!
Dünən döyüş zamanı –
Düşmənə qılınc oldu,
Dosta qalxan ürəyim!
Ömrü boyu sevmədi,
Sevmədi müharibə,
Sevmədi qan ürəyim!
Yetimlərə bir ata,
Qardaşsız bacılara
Oldu qardaş ürəyim!
Çəkib əsrin yükünü
Öz çiynində... Əsrimə
Oldu sirdaş ürəyim!..
Amma nədəndirsə
Macal tapıb mənimlə
Tək qalmadı ürəyim!
Sığallayıb başımı,
Kölgəsini üstümə
Heç salmadı ürəyim.

1970

DÜNYA, EY GÖZƏL DÜNYA

Gündüzlər – al Günəşin,
Gecələr – gümüş Ayın;
Bəzən coşqun ümmanın,
Bəzən kiçik bir çayın
Oldu mənə bir həmdəm,
Nə dərd bildim, nə də qəm,
Dünya, ey gözəl dünya!

Düzlərindən keçmişəm,
Sularından içmişəm,
Ürəyimdə tufanlar,
Dostum – gözəl insanlar;
Kimi ağ, kimi qara,
Atımı sürdüm hara,
Onlara sirdaş oldum,
Həmişə qardaş oldum,
Yedim şirin barını,
Dövlətini, varını,
Nə nemətlər var səndə!
Qara yellər əsəndə
Solur gülün, çiçəyin,
Heç açılmır ürəyin,
Dünya, ey gözəl dünya!

Qanlı cəbhələrdə mən
Çıxmışam döyüşlərdən.
Gördüm neçə ölkəni,
Tanıyır ellər məni!
Şəhərdə gurultunu,
Dənizdə uğultunu
Bir şirin mahnı sandım,
Nə bezdim, nə usandım.
Ayrılmadım, mən yerdən,
Xeyirxah əməllərdən.
Sevməsəydim Vətəni
Sevərdimmi mən səni,
Dünya, ey gözəl dünya!

Ölməyibdir hələ şər,
Təngə gəlibdir bəşər
Ölümlərdən, qanlardan.
Günahsız qurbanlardan.
Qısqanıb üstümüzə
Çox gəldi üstümüzə,
Şər dincəlmək bilmədi,
Bir sevinib gülmədi.
Özünü sandı haqlı,
Dolandı qaşqabaqlı...
Bir məsləhət verim mən;
Daim sayıq yaşa sən,
Dünya, ey gözəl dünya!

Nə gizlədim mən bunu;
Bəzən aylar uzunu
Yatmayıram gecələr;
Ən qorxunc düşüncələr
İnan, deşir bağrımı,
Kimsə bilmir ağrımı.
Narahatam bəşərdən;
Qopmasın bir də tufan,
Tökülməsin yenə qan,
Sevinməsin fəlakət,
Sinən olsun bir cənnət,
Dünya, ey gözəl dünya!

1972

ƏSRİM, TALEYİM MƏNİM!

Səngərlərdə doğulub
Şair olduğum gündən,
And içmişəm buna mən:
Sən məndəsən,
Mən səndə,
Ayrılmaz bir canıq biz.
Küləklər sərt əssə də,

Daim mehribanıq biz.
Sənin alovlarında
Bərkiyibdir bədənim,
Əsrim, taleyim mənim!

Ana olub sən durdun
Beşiyimin başında,
Qələm verdin əlimə
Ömrümün gənc yaşında.
Sən döyüşdən-döyüşə
Atdın məni inamla;
Sən dayandın arxamda
Həmişə ehtişamla.
Ey mənalar dünyası,
İnqilablar əsri, sən,
Qəhrəmanlar anası –
Ən qəhrəman əsrsən!
Milyonların qəlbində
Sən inamsan, amalsan,
Ən böyük səadətsən.
Günəşsən, istiqbalsan.
Ən şirin bir nemətsən,
Əsrim, taleyim mənim!

Sən üfüqdən-üfüqə
Açaraq qanadını
Göylərin qübbəsinə
Yazırsan öz adını!
Mən də böyük əməllər
Eşqiylə coşuram hey,
Sən mənə cavabdehsən,
Mən də sənə cavabdeh.
Çap atını hər yana!
Qoy qalsın düşmənlərin
İçindən yana-yana,
Əsrim, taleyim mənim!

1972

* * *

Öləndə bir daşa çevirin məni –
Vətən torpağında bozca bir daşa.
Mən yaxşı bilirəm tale deyəni:
Hər insan ömrünü vuracaq başa.

İstəməz nə tabut, nə də ki, məzar,
Ərköyün olmadım mən bu dünyada.
Bir də, bu adətdə böyüklükmü var?
Əziyyət verməyin tanışa, yada...

O daşın üstündə bir usta əli
Əvvəl günəş qazsın, sonra bir insan.
Çünki bu dünyaya şair gələli
Mən ancaq onları sevmişəm, inan!

Lap sonda bir küncdə qazıb adımı,
Araza ya Kürə atın o daşı!
Burada bitirib mən həyatımı,
Orada taparam öz sirdaşımı...
Amma matəm qurub saxlamayın yas,
Şair məclisində ağlamaq olmaz!..

* * *

Dostum! Hər insandan mənа ummа sən:
O bir günəşdir ki, yanar ürəkdə!
Tufandan-tufana düşsə də bəzən
O, sönməz şaxtada, uçmaz küləkdə.

Mənadır məhəbbət! Mənadır həyat!
Mənasız bir ömür məzara bənzər.
Onun lənət olar qazandığı ad,
Qoynunda daima əqrəblər gəzər.

Mənadır bu torpaq, o ulduz, o ay,
Mənadır hər gülüş, hər açan çiçək,
Mənadır o bulud, axıb gedən çay,
Mənadır bu dövran, gözəl gələcək!..

Onunla gül açır hər niyyətimiz,
Odur döyüşlərdə bayraqdar bizə;
Odur ümidimiz, səadətimiz,
Odur qanad verən şeirə, sözə!..

Dünya məna üstdə tutubdur qərar,
Hər şey məna ilə bəzənib gülür.
Bəşərin əbədi bir qanunu var:
Mənasız doğulan, mənasız ölür!

Əlini heç zaman üzmə bəşərdən, –
Mənasız yaşama bu dünyada sən!..

1972

OĞLUM ETİBARA

Dünya rəqs meydançası,
Sübhədək əyləncələr
Salonu deyil, oğlum,
Qurbanın olum!
Dünya mənzil də deyil,
Xoşuna gəlməsə, sən
Başqa yerə köçəsən.
Dünya at da deyil ki,
Yəhərləyib çapasan,
Sehrli üzük taxıb
Xəzinələr tapasan...
Dünyaya gələ bilmək,
Dünyada qala bilmək
Yaman zor işdir, oğlum,
Qurbanın olum!
Dünya – fikirdə döyüş;
Dünya – ürəkdə döyüş;
Dünya – gözdə döyüşdür;
Dünya – sözdə döyüşdür,
Oğlum, qurbanın olum.

Dünya, hər vaxt dünyaya
Keşikdə duranındır;
Dünya, hər vaxt dünyanı
Yenidən quranındır,
Oğlum, qurbanın olum!

1968

NƏVƏM, VİLDANIM MƏNİM!

Yaltada gecə yarı
Eyvandan aya baxdım,
Nəvəm, Vildanım mənim!
O da sənin kimiydi:
Qar toputək, yupyumru,
Həyatım, canım mənim!
Ay gəzdikcə buludda;
Tıppır-tıppır gəlişin,
İncə-mincə gülüşün
Düşdü mənim yadıma.
Sanki nər gücü gəldi
Bu dəm hər qanadıma,
Şöhrətim-şanım mənim!

Sən körpəsən... Bilməzsən
Bunun sirrini əlbət.
Sənə bəlli deyildir
Nəvədəki şirinlik,
Babadakı məhəbbət!..
İllər ötüb keçəcək...
Böyüyüb zaman-zaman
Dolacaqsan sən yaşa.
Ucaboylu,
Gursaçlı...
Səni görüb hər oğlan
Edəcəkdir tamaşa,
Nəvəm, Vildanım mənim!

Amma həyat, a quzum,
Bir kasa şərbət deyil –
Qaşıq-qaşıq içəsən.
Hazır körpü də deyil –
Üstündən harın-harın,
Səhər-axşam keçəsən...
Şərbəti özün düzəlt,
Körpünü də özün sal,
Bir şirin nəğmə olub
Həmişə dillərdə qal!..
Yox, unutma, dünyada
Gül də var, çiçək də var.
Tikan da var, a bala!
Tikan olub heç zaman
Batma sən ayaqlara.
Sən çiçək ol,
Sən gül ol.
Ətrini saç, zinət ver
Bağçalara, bağlara...
Bu dünyadan, həyatdan
Təkcə səfa umma sən;
Çünki dostdan-aşnadan
Cəfa da görəcəksən!..
Sən ildırım gülüşlü,
Kür axarlı bir qız ol,
Dostunla dostluq eylə,
Düşmənə amansız ol,
Nəvəm, Vildanım mənim!
Mən də belə yaşadım
İnan, ömrün uzunu,
Saxla yadında bunu;
Dayağın zəhmət olsun,
Bir də bu doğma torpaq.
Qızım, əgər büdrəsən
Pisə də, yaxşıya da
Ağlının gözüylə bax!..
Vaxt gələcək, bir zaman

Ana da olacaqsan,
Sədaqətli,
Namuslu...
Dönüb qoca palıda
Uşağının üstünə
Kölgə də salacaqsan,
Nəvəm, Vildanım mənim!..
Sabah həyat, bu dünya,
Daha gözəl olacaq.
Vəfa, hörmət artacaq
Dostluqda, məhəbbətdə.
Gül-çiçək çox, tikan az
Olacaq cəmiyyətdə.
Axmayacaq nahaq qan.
Bugünkündən kamallı,
Bugünkündən daha saf
Olacaqdır bu insan!
Odur ki, sən,
İndidən
Addımını möhkəm at,
Sənindir bu dünya,
Sənindir bu həyat,
Nəvəm, Vildanım mənim!..

1970

MƏN ODLU BİR QILINCAM

İgid oğlan, min ata,
Döyüşə apar məni.
Mən sənə qardaş ollam.
Mən sənə sirdaş ollam.
Qorxu nədir bilmədən
Haqq işə apar məni, –
Döyüşə apar məni!..

Haqq, ədalət yolunda
Düşmənə sinə gərib

Oynat məni havada,
Dönüb bir ildırıma
Qoy düşmənin başına
Mən od töküm davada,
Bu ölüm qoy olmasın,
Qoy olmasın qan-qada.
Daim xoşbəxt yaşasın
İnsan bizim dünyada.

O zaman ki döyüşlər
Cəbhədə yetdi sona,
Sən məni təmiz silib
Öz əlinlə qoy qına.
Çarpayının başında,
Xalça üstə as məni,
Orda sakit duraram.
Bəzən dönüb bir qəlbə
Anaraq döyüşləri
Məhəbbətlə vuraram,
Sədaqətlə vuraram,
Orda sakit duraram.

1973

* * *

Qoy çaxsın ildırım, sönsün kiçik şam,
Dağlara, daşlara tökülsün işıq,
Ərisin yollarda qaranlıq axşam,
İldırım dağlara versin yaraşıq.

Hər yan işıq olsun, hər yan çıraqban,
İşıq da dünyada gözəl nemətdir.
Açsın sinəsini işığa insan,
Onun hər niyyəti saf məhəbbətdir.

Məhəbbət işıqlı olarsa əgər,
Ürək xoşbəxt olar, ömür də gülər.

1973

* * *

Şərbət də içdim mən, zəhər də gördüm;
Yenə də var olsun, söylədim, həyat!
Ömrümü, qəlbimi şeirə verdim,
Dövlətim zəhmətdir, bir də təmiz ad!

Təmiz ad və zəhmət! Var olun sizi,
Bilirəm, sizdədir xeyir-bərəkət.
Gəlin bir də öpüm əllərinizi,
Hər arzu sizinlə güləcək, əlbət.

Sizinlə güləcək göy də, torpaq da,
Sizinlə bəxtiyar olsun insanlıq!
Sizsiz uçub gedər ən uca dağ da,
Sizsiz zəfər çalmaz bir qəhrəmanlıq!..
Sizinlə yaşayıb xoşbəxt olaq biz,
Sizdən ayrılmasın nəsillərimiz.

1972

* * *

– Bulaq, gözəl bulaq, belə axıb sən
Söylə, bu dağlardan hara gedirsən?
– Orda gün yandırır, çölü, çəməni,
Bir bağça "su!" deyib çağırır məni.

– Neyləyə bilərsən sən o səhrada?
De, neçin özünü atırsan oda?!
– İstərəm dərdlərə çarə edim mən,
Batsam da, qoy orda batıb gedim mən...

1972

* * *

– Söylə, ey ildırım, nə üçün sənin
Oddan, alovdandır bütün bədənin?
– Mən odla, alovla çaxmasam, inan,
Dağılmaz bu zülmət, uçmaz o duman!
– Səndəki qəhqəhə, səndəki gülüş

Elə bil nifrətdən, kindən tökülmüş?
– Heç yeri varmı,
De, bunsuz döyüşə girmək olarmı?!
İnsan da qəzəbi öyrəndi məndən!..
– Çoxmu çaxacaqsan bu göylərdə sən?
– Bilmirəm... Nə qədər bu çöl, bu yamac,
Yağışa və suya duyur ehtiyac,
Nə qədər göylərdə qara bulud var,
Bu qatı, zülmət var, qatı sükut var,
Onları yandırıb yaxacağam mən,
Od töküb göylərdə çaxacağam mən!..

1972

DAĞ MEHİ

Dağ başından meh əsdi...
Aşdı təpə, keçdi düz,
Əsdi arana sarı.
Dağda otu dindirdi,
Meşədə yarpaqları...
– Ey dağ mehi! – dedim, – sən,
Səhər-səhər bu sayaq
Hara əsib gedirsən?
Titrədib qanadını
Meh dayandı bu ara,
Ürəyində göynədi
Sanki ağır bir yara.
Dedi: – Bizim dağlara
Dünən gələndə duman,
Qılınc çəkib cəbhəyə
Getdi bir gənc qəhrəman.
Alışıb döyüşlərdə
Bir şam kimi söndü o.
Sonra orda, aranda,
Böyük bir meydançada
Tunc heykələ döndü o!

O vaxtdan bu dağlara
Hər il gələndə bahar,
Əriyəndə düzlərdə,
Yamaclarda hər il qar.
Çırpıb qanadlarını
Mən heykəlin daşına.
Dolanıram hər səhər
O igidin başına...
Açanda qızıl günəş
Hər gün orda çətrini
Aparıram mən ona
Bu dağların ətrini...
Unutmayıb çiçəklər,
Sərin sular heç onu,
Unutmayıb dağların
O qəhrəman oğlunu!..

1971

BAĞBANLA SÖHBƏT

– Bağban qardaş, nə əkirsən? –
Yerə qoydu pöhrəni,
Sağ əliylə göstərərək
Dağ döşünü, dərəni,
Bağban dedi: – Bağ salırıq...
Bağ salırıq burda biz,
Amma yaman zor işdi bu,
Çox ləng gedir işimiz...

– Qollarınız yorulmasın,
Bağban qardaş, – dedim mən.
Dağda çörək daşdan çıxır,
Bu bəllidir əzəldən...
Bağban yerə bir bel vurdu,
Yana atdı torpağı.
Sonra dönüb mənə baxdı,
Güldü qaşı, qabağı;

– İş çörəkdə deyil, qardaş...
Dəyişibdir zamana.
Köhnə aləm, köhnə dünya
Dar görünür insana.
Gərək hər şey gözəl olsun,
Dəyişsin göy də, yer də.
Bir qəm, qüssə yuva salıb
Qalmasın ürəklərdə.
Dağlar daha qəşəng olsun!
Göz görsün, sevsin könül,
Bu yerlərə zinət versin
Sarı heyva, qızılgül!..
– Dağda mümkün olarmı bu?!
Qışda boran, şaxta, qar,
Zəhmətiniz zaya gedər,
Bunun nə mənası var?!
Bağban bir an danışmadı,
Qulaq asdı sözümə,
Yenə yerə bir bel vurdu,
Dönüb baxdı üzümə:
– Babalar da belə dedi...
Minillik bir ətalət
Nə gözlərdə işıq qoydu,
Nə qollarda bir taqət!
Azacıq aş,
Ağrımaz baş! –
Məsəl oldu dillərdə,
Könül açan şey görmədik.
Obalarda, ellərdə...
Ancaq indi iş başqadır:
İnsandakı güc, kamal
Hər çayda bir bənd yaradıb,
hər obada bir cəlal!
Hər dərdin öz çarəsi var. –
Bunu deyib elə bu an,
Yerə bir bel vurdu bağban.
Mən utandım öz sözümdən.

Mən utandım öz-özümdən.
O işləyir... onun bu dəm,
Xəyalında gülür aləm.
Budaqlarda şirin barı,
Alma, armud ağacları
Başlarını əyir yerə.
Nə gözəldir bu mənzərə!
Bülbüllərin pırıltısı,
Bulaqların şırıltısı
Ləzzət verir bu vaxt ona,
Ləzzət verir o insana.
Dağ da, daş da abad olur,
Könül gülür, göz şad olur!..

1971

* * *

– Neçin pəncərəmi döydün, ey külək?
– Odur bax, yar gəlir... Çiynində örpək!
– Sən görən deyilsəm... Keçibdir yaşım,
Ağarıb saqqalım, ağarıb başım...
– Eşqə nə yaş vardır, nə də ki, zaman,
Onunla kamala dolacaq insan!
– Bələdəm, bələdəm o ülviyyətə,
Daim can atdığım əbədiyyətə!
Amma ki, neyləmək!
– Aç pəncərəni,
O bahar, o günəş qoy öpsün səni!
– De, gəlsin... Getməmiş ixtiyar əldən,
Qovuşum o məna dünyasına mən!..

1971

* * *

Yenə səhər-səhər başımın üstdən
Qaqqıldaşıb keçir durna qatarı...
Baxıram onlara, hey baxıram mən,
Ucalır qəlbimdə insan vüqarı!

Onlar uçub gedir... Durmuşam yerdə,
Yenə kainata sığmayır xəyal!
Nə varsa dəyişir düşüncələrdə,
Özüm də bilmirəm, nədəndir bu hal?!

Bilmirəm, bu hikmət nədir zamanda?
Asiman məndədir, mən asimanda!

1970

* * *

Sən
Uçurum döşündə,
Daşların arasında
Bitmiş bir bənövşəsən.
Mən isə sənə sarı
Təbəssümlə, kədərlə
Uzanan həsrətli əl!..
Ətrin dağların ətri,
Rəngin mənim sevdiyim
Bu göylərin rəngi tək!
Üstündə günəş deyil,
Mənim qəlbimdir yanır
Məhəbbət çələngi tək.
Hər gün çıxıb bu dağa,
Dururam intizarla
Hüsnünə baxa-baxa.
Uzadıram əlimi –
Gözlərimdə bir ümid,
Əlim sənə yetməyir!..
Nə zamandır, əzizim,
Bu işgəncə, bu əzab
Tükənməyir, bitməyir!..
Qəm yükünün altında
Əymə, sən də boynunu,
Heç sevmirəm mən bunu!
Məhəbbət çətin işdir!..
Kim deyir dünyada o,

Bir yuxudur, cənnətdir?..
Sənə yetmək – ölümdür,
Yetməməksə, sevgilim,
Əbədi fəlakətdir!
Mən qorxuram, qoy olsun!
Məhəbbətsiz həyatım
Dönəcəkdir bir heçə.
Sənə yetib... sonra da
Orda hünərlə ölmək
Daha gözəldir, məncə!

1970

QARATOYUQ

Sarı dimdiyində çöp,
Pırıltıyla ağacdan
Endi bir qaratoyuq.
Böyük gölün içində
Dincəlməyib o bir an
Yuva tikir özünə,
Nə gün bilir, nə soyuq...
Yuva dərdi!..
Bala eşqi!..
Bunun üçün quşcuğaz
Vurnuxur sağa-sola.
Qonur birdən ağaca,
Sonra da enir kola.
Kol bütün oyuq-oyuq,
Dincəlməyir qaratoyuq...
İşlə, işlə, gözəl quş!..
Tik yuvanı, amandır,
Bu dünyada hər zaman
Yuvasızlıq yamandır!
Qaratoyuq!
Qaratoyuq!

1970

* * *

Mən bir çinar ağacıydım...
Bu yerlərin qucağında –
Dağ gövdəli, yaraşıqlı.
Öz dünyam, öz adım vardı...
Bürümüşdü dörd yanımı
Çadır kimi budaqlarım,
Gün işıqlı... ay işıqlı
Yaşıl-yaşıl yarpaqlarım.
Mən bir çinar ağacıydım...
Şən insanlar, gözəl quşlar
Daim qonaq oldu mənə.
Bu boz torpaq, bu boz qaya
Möhkəm dayaq oldu mənə...
Dildən-dilə düşüb gəzdi
Yer üzünü bu qüdrətim.
Sevindirdi dostlarımı,
Bir dağ çəkdi düşmənlərə
Bu vüqarım, bu şöhrətim...
Mən bir çinar ağacıydım...
Göylərimə gəldi duman,
Yanağıma ulduz deyil,
Damla-damla töküldü qan.
Oynadıqca ildırımlar
Sınıb düşdü budaqlarım,
Dağıtdılar büsatımı:
Uçub getdi gözəl quşlar –
Mənim əziz qonaqlarım!
Qəh-qəh çəkib güldü düşmən:
O istədi etsin məni
Qolu sınmış bir qəhrəman!..
Yox! Budaqsız çinar olmaz!..
Mən sarsıldım,
Yıxılmadım,
Ayrılmadı köküm yerdən,
Qüvvətimi, qüdrətimi
Bu torpaqdan almışam mən!..

Getdi duman!
Getdi o qan!
Güldü mənim taleyimə
Güldü tarix, güldü zaman!..
Mən bir çinar ağacıyam!..
İnsanların, ulduzların
Sirdaşıdır yarpaqlarım.
Yaxınlara, uzaqlara
Bir şöhrətdir əzəl gündən
Mənim yaşıl budaqlarım!

1970

* * *

Talan olmasın deyə
Elin dövləti-varı –
Keşikçilər qoruyur
Böyük, kiçik anbarı...

Bağbanlar yay zamanı,
Məhsulun gözəl çağı
Gözləyir oğrulardan
Bu bağçanı, bu bağı.

Sərhədçilər söyləyir:
– Düşmən bilsin həddini!
Onlar hər an qoruyur
Vətənin sərhədini!..

Bəs məhəbbət?
Bəs vicdan?
Bəs döyünən o ürək,
Kim qoruyur de görək?
Kim qoruyur ürəyi,
Kim qoruyur vicdanı
Keçirib süngülərdən
Hər yalanı, böhtanı?

Sədaqətə, namusa
Gündə min yol and içən,
Amma hər tin başında
Bunların üstündən keçən
O həyasız adamlar
Xəncər vurur ürəyə,
Ləkə yaxır vicdana.
Gülür, rişxənd eləyir
Zəhmətiylə dolanan
Hər namuslu insana!
Bəzən də sən
Görürsən,
Yenicə qönçələnmiş
Bir ülvi məhəbbəti,
Uçurur təpiklərdə
Bir nankorun, nadanın
Amansız xəyanəti.
Sadiq, gözəl bir qızın
Sönür məhəbbət şamı,
Qalır gözündə kamı!..

Dostlar, bu gün biz gərək
Misraları, sözləri
ordu kimi düzərək
Qoruyaq hər ürəyi,
Qoruyaq hər vicdanı –
gəzib keşikçi kimi
gecə-gündüz hər yanı
Əldə sözün qılıncı,
qəlbimizdə zamanın,
bir də elin qüdrəti –
Qoruyaq sədaqətlə
Müqəddəs məhəbbəti.

1970

ÇAYIN HƏSRƏTİ

Qurumuş bir dağ çayı...
yatağında çınqıl, qum,
sahilində çiçəklər...
Yayda onu gün vurur,
qışda isə hiddətlə
qamçılayır küləklər...
Hanı əvvəlki dövran,
mavi sular axaraq
qayaları döyərdi?
Gündüz günəş, gecə ay
yellənərək sularda
ona mahnı deyərdi.

Ellər dağa köçəndə,
bizim incə gözəllər
bəzək verib özünə,
qəh-qəh çəkib bu yerdə,
bir şirin nemət kimi
su çilərdi üzünə.

Gənclər məclis qurardı
yaşıl otlar üstündə
əllərində qaval, tar.
Doymazdılar nəşədən,
dillərində sübhədək
Şirin sevgi, nazlı yar...

Bəzən uca dağlara
yığılanda duman, çən
çaxardı ildırımlar,
güclü yağış yağardı...
Sel gələrdi qıjhaqıj
uçardı sıldırımlar...
Mələşərdi quzular,
dəyərdi çayda daşlar

bir-birinə çatbaçat...
Hanı indi o gənclər?
İncə gözəllər hanı?
Deyin, hanı o həyat?!

Mən baxıram bu çaya...
ürəyimdə qövr edir
keçən günün möhnəti.
Parçalayır bağrımı:
daşın çaya həsrəti,
çayın suya həsrəti!..

1970

* * *

Gecə, döyüşqabağı,
səngərə çökdü sükut,
Ürəyimdə sabaha –
qələbəyə bir ümid
Mən baxdım dostlarıma...
Sonra kibrit çıxarıb
yandırdım tənbəkimi.
Dalaraq düşüncəyə
oxşadım əllərimlə
vəfalı tüfəngimi.
Tənbəkinin ucunda
kim görürdü bu odu –
Palıd gözü sanırdı.
Ancaq onlar bilmirdi
Tənbəkidə deyil o,
Ürəyimdə yanırdı!..
Bu od, birdən çoxaldı...
Dan sökəndə üfüqdə
olub payız buludu
İntiqamla, qəzəblə
biz düşmənin üstünə
səpələdik bu odu...
Düşmən, elə sandı ki,

yana-yana döyüşdə
külə dönüb solmuşam...
Xeyr! O gün davada
Mən odlardan yaranan
Bir əfsanə olmuşam! .

1970

* * *

Tökül, ey dağ çayı, uç qayalarda!
Sonra şırıldayıb ax çəmənlərdən.
Tökül, ey dağ çayı! Olsam da harda
Daima səsini qoy dinləyim mən.

Tökül, ey dağ çayı, uç qayalarda!
Həyat ver otlara, bu çiçəklərə.
Qoyma bir insanı, bir dostu darda, –
Çilə öz suyunu sən ürəklərə!

Tökül, ey dağ çayı, uç qayalarda!
Baxım şırıltına durub bu yerdə,
Könül sızlamasın qoy intizarda, –
Gələnlər, gəlməyir dünyaya bir də!..

1970

* * *

Hacıkənd, Sarı yal, hardasınız siz?
Hardasan, hardasan, Armudlu bulaq?
Mən deyib-gülmədim dünyada sizsiz,
Dururmu o meşə, dururmu o dağ?

Dururmu göy tala? Bizim boz çinar
Yenə kölgəsini ora salırmı?
Yaddaşdan silinməz dostluq, etibar,
Məni keçənlərdən xəbər alırmı?

Sarı yal! Üstümə tök çiçəyini;
Yağdır yağışını sən də, Hacıkənd!

Şeirim orda qoyub öz üroyini,
Sizindir yazdığım hər kəlmə, hər bənd.

Axıt sinəm üstdən, axıt suyunu,
Mənim köhnə dostum, Armudlu bulaq?
Göstər, ey boz çinar, görüm boyunu,
Qoy hicran çəkməsin sinəmizə dağ!

Belə bir qanun var, unutmayaq biz,
Vətənsiz yaşayan ölər vətənsiz!..

1970

DAĞ CIĞIRI HAQQINDA ŞEİR

Bir cığıram dağlarda!..
Yollarımda al günəş,
Yollarımda duman, çən...
Gah dərəyə enirəm,
Gah çıxıram düzə mən!
Dağlarda tufan qopub,
Od tökəndə ildırım,
Buludların yaxası
Olanda şırım-şırım,
Səs çatmaz zirvələrdən
Gəlir mənim sorağım,
Başım göydə olsa da,
Yerdə durur ayağım!

Bir cığıram dağlarda!..
Üstümdən kəklik uçur,
Keçir durna qatarı.
Tufanda yol azanlar
Gəlirlər mənə sarı.
Bəzən gedir sinəmdən
Bir ağ quzu, bir çoban;
Bəzən də keçib gedir
Yollar yoran bir karvan!..

Bir yan taxıl zəmisi,
Bir yanda da göy çəmən.
Bildirçinin, turacın
Səsinə heyranam mən!..
Pozulmasın deyərək
Üstümdəki bu calal,
Keşik çəkir havada
Daim mənə bir qartal!..
Bir cığıram dağlarda!..
Qüvvət alıb zamandan
Bir tükənməz əməldən,
Mən səfərə çıxmışam
Bu yerlərdə əzəldən!
Bu yol asan deyildir,
Gizlətmirəm, a dostlar,
Deyim sizə düzünü:
Burda atlar nal tökür,
Maral buynuzlu kəllər
Yerə qoyur dizini!..
Məni sellər uçurmaz,
Uda bilməz sıldırım...
Yandıra bilməz məni
Qəzəblənib ildırım...
Sanmayın ki, bir quşam,
Zirvələrdə süzürəm,
Torpağı sevdiyimdən –
Mən torpaqda gəzirəm!..
Mən dağlarda mahnıyam,
Cığır olmuş insanam.
Xoş arzular yolçusu
Bir əbədi karvanam!
Sərin suyam! Günəşəm!
Mənəm insan ümidi,
Mənəm insan pənahı.
Mənəm dağlar döşündə
Dumanlardan parlayan
Bu dağların sabahı!..

Bir ağ sapa bənzədib
Məni düşmən heç zaman
Yığa bilməz oliné:
Bir gündə min bir dəfə
Mən dolana bilərəm
Bu dünyanın belinə!..
Dağlarımdan ayrılıb
Getsəm belə hər yana.
Mən dönürəm yenə də
Anam Azərbaycana!..

1969

QƏHRƏMAN AĞAC

Ağaclar oyanmamış,
Ərimənmiş dağda qar;
Torpağı qızdırmamış
Nə al günəş, nə bahar,
Yol üstündə ən gözəl
Ən sevimli bir ağac
Çəhrayı çiçəklərdən
Öz başına qoydu tac!..

Yoldan ötüb gedənlər
Bunu görüb şad oldu,
Qarlı, çovğunlu günlər
Könüllərə yad oldu:
Sanki birdən çəkildi
Qışın ağır yuxusu,
Tutdu bağı-bağçanı
Çiçəklərin qoxusu!

Ağac özü də baxdı,
Heyran oldu bu hala,
Daha da zinət verib
Hüsnündəki calala
Dedi: "Gəlin, insanlar!

Sizinkidir bu çiçək,
Sizinkidir başımda
Gördüyünüz bu ləçək!
Gəlin! Sizə verirəm
Dövlətimi, varımı,
Bu gün çiçəklərimi,
Sabah şirin barımı.
Gəlin, gəlin! Dünyada
Həmişə bahar olsun,
Qoy gözəllik, səadət
İnsanlara yar olsun!.."
Ağac belə söylədi...
Birdən əsdi küləklər,
Şaxta vurdu ağacı,
Soldu o şux çiçəklər.
Qış oynatdı son dəfə
Qılıncını havada,
Öldü gözəl o ağac
Bu dəhşətli davada!..
Yox, yox!.. Onu udsa da,
Qorxunc ölüm dumanı,
Unutmadı insanlar
Əsla o qəhrəmanı!..

1969

* * *

Göldə qayıq izi var:
Göldən insan keçmişdir!
Çöldə dəvə izi var:
Çöldən karvan keçmişdir!
Dağa bir cuna düşüb:
Dağdan duman keçmişdir!
Bağda yarpaqlar solub:
Bağdan xəzan keçmişdir!
Könlümdə güllər açıb:
Ordan canan keçmişdir!..

1969

TONQAL

–Şair, başın ağarıb,
Saçlarına düşüb qar,
Nə gözündə təbəssüm,
Nə üzündə gülüş var.
De, niyə pərişansan?!
– Yox, soruşma bunu sən,
Bu bir karvan yüküdür,
Çəkirəm çiynimdə mən!..
Dünya, yaman çalxanır,
Dağılarsa təməli,
Od vurub yandırarsa
Onu bir namərd əli,
Düşün sən də, qardaşım,
Sən də düşün bir anlıq, –
Sönər bütün kainat,
Batıb gedər insanlıq!..
– Bəli.. Ağır dərddi bu. –
Rəngin birdən saraldı,
Elə bil ki, üstünü
Boran aldı, qar aldı?!
– Çoxdandır ki, gözlərim
Yuxu nədir bilməyir,
İztirabdan, fikirdən
Ürəyim dincəlməyir!..
Dünya insan eşqinə
Nə sönür, nə dayanır.
Gecə-gündüz içimdə
Bir böyük tonqal yanır!..
Demə, başın ağarıb,
Gülüşün də donubdur:
O tonqalın külüdür
Saçlarıma qonubdur.
Mən getsəm də dünyadan:
Bəzən coşqun, bəzən lal,
Yanacaqdır şerimdə
Alovlanan o tonqal!

1968

* * *

Əgər gözüm kor olsa,
Baxaram dünyaya mən
Vicdanımın gözüylə.
Əgər dilim lal olsa,
Danışaram zamanla
Bulaqların sözüylə.

Döyüşdə parçalansa
Bir dostumun ürəyi,
Ürəyimi verərəm!
Susuz, qorxunc səhrada
Ac qalsa bir göyərçin,
Çörəyimi verərəm!
Əgor günəş qaralsa,
Dönüb bir şama həmən
İşıq ollam insana;
Ulduzlara nur verib
Zülmətli gecələrdə
Kül ollam yana-yana...

Bir gün bu amal ilə
Əgər getsəm dünyadan,
Ağlamayın heç zaman...
Təki dünya var olsun!
Təki vicdan var olsun!
Təki amal var olsun!
Təki insan var olsun!

1968

PİRŞAĞI

Yayın avqust ayında
Gündüzləri təndir tək,
Gecələri elə bil
Bir cənnətdir Pirşağı!

EY BOZ ÇİNAR, XAN ÇİNAR

Bu dünyaya gələndən
Göz açıb səni gördüm,
Ey boz çinar, xan çinar!
Şair olub könlümü
Mən ancaq sənə verdim,
Ey boz çinar, xan çinar!
Gecələr ay doğanda,
Hüsnündəki yaraşıq
Ömrümə yaraşıqdır;
Dan söküb, gün çıxanda
Üstündəki hər işıq
Gözlərimə işıqdır,
Ey boz çinar, xan çinar!
Keçmişləri ananda,
Xəyal çatır dadıma.
Nədəndirsə Nizami,
Vazeh düşür yadıma,
Ey boz çinar, xan çinar!
Sən bu qədim Gəncənin
Ən vəfalı yarısan,
Cən bizim babaların
Sınmayan vüqarısan,
Ey boz çinar, xan çinar!
Mən durduqca, sən belə
Daim gözəl olub qal.
Ölsəm, qəbrimin üstə
Bir qırmızı yarpaq sal,
Ey boz çinar, xan çinar!
Bir yarpaq sal... Orda da
Mən görüm işıltını.
Ey boz çinar, xan çinar!
Bir yarpaq sal... Orda da
Eşidim xışıltını,
Ey boz çinar, xan çinar!

1968

* * *

Meşədə böyümüş nəhəng bir ağac,
Palıdlar içində yaşadı müdam.
Bir gün genişliyə duyub ehtiyac
Dedi: – Qoy məni də görsün hər adam.

Mənim də öz adım, şöhrətim olsun,
Kimdir bu meşədə tanıyan məni?
Hər eldə, obada söhbətim olsun,
Saxlayım kölgəmdə gəlib-gedəni...

Çıxaraq meşədən, bir səhrada tək
Yaşıl çəmənlikdə o saldı məskən.
Gün keçdi... Əsərək güclü bir külək,
Ağacı qoparıb atdı kökündən.

Mən isə düşündüm daim təlaşda:
Günah küləkdədir, yoxsa ağacda?

1967

İNSANLAR, İNSANLAR

Var üçün, dövlət üçün,
Ad üçün, şöhrət üçün
Qaraya ağ, ağa qara
Söyləməyin, insanlar, insanlar!
Özümə xoşdur deyib
Qəlbinizdə ədavət,
Üzünüzdə təbəssüm,
Başqasını siz bədbəxt
Eyləməyin, insanlar, insanlar!
Böhtan, yalan nədir, nə?
İnanmayın buna siz,
Qoy hər zaman, hər yerdə
Alnınız açıq olsun,
Üreyiniz tərtəmiz!
Siz vicdana inanın,

Siz kamala inanın,
Siz insana inanın,
İnanın yaxşılığa,
Ədalətə inanın,
İnsanlar, insanlar!
Səadətin, həyatın
Mənası zəhmətdədir,
Siz zəhmətə inanın,
İnsanlar, insanlar!
Torpaq böyük nemətdir,
Siz torpağa inanın;
Axar suya inanın,
Al günəşə inanın;
Göy yarpağa inanın,
İnsanlar, insanlar!

Əlimizlə qurulan,
Böyük calalımız var,
Bu calala inanın,
İnsanlar, insanlar.
Günəşdən daha parlaq,
Gözəl amalımız var,
Bu amala inanın,
İnsanlar, insanlar!..

1958

QAQRA ŞEİRLƏRİ

QARA DƏNİZƏ SÖZÜM VAR...

Sənsiz nə gündüzüm var,
Nə də ki, gecəm mənim,
Qara dəniz!
Yalnız səndə cəm olub
Fikrim, düşüncəm mənim,
Qara dəniz!
Xəzərimə qardaş ol,
Ürəyimə sirdaş ol,

Qara dəniz!
Günəş olub axşamlar
Qoy sinəndə batım mən,
Ulduz olub gecələr
Dalğalarda yatım mən,
Qara dəniz!
Durna olub səhərlər
Qoy üstündə süzüm mən,
Sona olub daima
Sularında üzüm mən,
Qara dəniz!
Şair sözü düz gərək...
Dinlə mənim sözümü;
Qocalsam da hələ var
Ürəyimin dözümü;
Aclıq qılınc çəkəndə,
Gün olub ki, səhərdən
Qəndə,
Duza,
Çörəyə
Növbəyə durmuşam mən...
Amma heç vaxt, heç yerdə
Sədaqətə, dostluğa
Mən növbəyə durmadım,
Özgənin qismətinə
Mən əlimi vurmadım,
Qara dəniz!
Ömrümdə göz dikmədim
Bir kəsin sərvətinə.
Mən paxıllıq etmədim
Dostumun şöhrətinə,
Qara dəniz!
Şair olmaq ağırdır,
Bunu indi bilmişəm,
Heyran olub hüsnünə
Sahilinə gəlmişəm,